# Türkiyənin Milli Müdafiə Nazirliyi Dövlət Suverenliyi Günü münasibətilə Azərbaycanı təbrik edib

**Türkiyənin Milli Müdafiə Nazirliyi Dövlət Suverenliyi Günü münasibətilə Azərbaycanı təbrik edib.**

AZƏRTAC xəbər verir ki, qardaş ölkənin Milli Müdafiə Nazirliyinin sosial şəbəkələrdə dərc olunmuş təbrik mesajında Məmməd Əmin Rəsulzadənin sözləri sitat gətirilib: "Sən bizimsən, bizimsən, durduqca bədəndə can. Yaşa, yaşa, çox yaşa, ey şanlı Azərbaycan!"

Təbrikin mətnində daha sonra yazılıb: "Azərbaycanlı qardaşlarımızı Dövlət Suverenliyi Günü münasibətilə təbrik edirik. Ölkələrimiz "Bir millət, iki dövlət" kəlamının işığında bundan sonra da birlikdə olacaqlar".




Azərbaycan.- 2024.- 21 sentyabr (№206).- S.9.